Türk Dünyası Araştırmaları | Mart - Nisan 2023
TDA | Cilt: 133 Sayı: 263 Sayfa: 219-234

# Azərbaycan Halq Cümhuriyyeti Dövründə Şuşa Hadisələri (Azerbaycan Qəzetesinin Materialları Əsasında)

# Azerbaycan Halk Cumhuriyeti Dönemindeki Şuşa Olayları (Azerbaycan Gazetesinin Malzemelerine Göre)

***Events In Shusha During The Period Of The Azerbaijan People's Republic (Based On The Materials Of The Azerbaijan Newspaper)***

**Rukhsara Bahtiyar GULİYEVA**[*]

[*] Dr., Bakü, Azerbaycan

**Orcid Id:** 0000-0001-9245-7304

**Sorumlu Yazar / Corresponding Author:**
Rukhsara Bahtiyar Guliyeva
Khazar University, Beşeri Bilimler, Eğitim ve Sosyal Bilimler Fakültesi, Tarih Bölümü, Bakü, Azerbaycan

**E-posta / E-mail:**
ruksaresguliyeva@khazar.org

**Geliş Tarihi / Recived Date:**
2 Şubat 2023

**Kabul Tarihi / Accepted Date:**
22 Mayıs 2023

**Araştırma Makalesi / Research Article**

**Atıf / Citation:**
Rukhsara Bahtiyar Guliyeva, "Azerbaycan Halk Cumhuriyeti Dönemindeki Şuşa Olayları (Azerbaycan Gazetesinin Malzemelerine Göre)", *Türk Dünyası Araştırmaları*, Cilt 133, Sayı 263, İstanbul 2023, s. 219-234.

**doi:** 10.55773/tda.1278171

Bu makale Creative Commons BY-NC-SA 2.0 tarafından lisanslanmıştır. /
This article is licensed under a Creative Commons BY-NC-SA 2.0.

**Öz**

*1917'de Rusya'da Şubat burjuva-demokratik devriminden sonra, Ermenilerin Azerbaycanlılara yönelik etnik temizlik politikasının ikinci aşaması başladı (1918-1920). Yine Şuşa dahil tüm Karabağ bölgesi hedef olarak seçildi. Böylesine karmaşık bir tarihsel dönemde, Mayıs 1918'de Güney Kafkasya'da üç bağımsız cumhuriyetin kurulmasıyla Şuşa'daki Ermeniler ve Azerbaycanlılar arasındaki ilişkiler daha da gerginleşti. Karabağ'ın dağlık kesiminde yaşayan Ermeniler, 22 Temmuz 1918'de "bağımsızlığını" ilan etmeye çalıştı. Tarihsel olarak Azerbaycan halkının yaşadığı Karabağ, Azerbaycan Halk Cumhuriyeti için bir ölüm kalım meselesiydi. Karabağ ve onun merkezi olan Şuşa'nın Ermenilere verilmesi veya Ermeniler lehine herhangi bir karar alınması hiçbir zaman tartışma konusu olmamış, yeni kurulan devlet varlığını sürdürdüğü 23 ay boyunca Ermenistan'dan gelen sürekli tehditlere gereği gibi direnmiştir. Hükümetin resmi yayın organı olan Azerbaycan gazetesi bu konuda şunları yazıyordu: "Bakü ülkemizin vücudunu oluşturduğunda, Karabağ Azerbaycan'ın ruhunu, zevkini oluşturur. Bakü Azerbaycan'ı maddi olarak sağlıyorsa, Karabağ'ın onu manevi olarak desteklediği herkes tarafından bilinmektedir. Azerbaycan Türklerine ruhsal ve manevi zenginlik veren, onları entelektüel ve fikir sahibi yapan Karabağ ve Karabağ'dır dersem, sanırım hiçbir Azerbaycanlı bunu inkar etmez. Bu nedenle Karabağ'ı sımsıkı elimizde tutmak bizim için bir ölüm kalım meselesidir."*

***Anahtar Kelimeler:*** *Karabağ, Şuşa, Azerbaycan Halk Cumhuriyeti, Azerbaycan gazetesi.*

**Abstract**

*After the February bourgeois-democratic revolution that took place in Russia in 1917, against the backdrop of acute political events in the South Caucasus, the second stage of the policy of ethnic cleansing of Armenians against Azerba-*

*ijanis (1918-1920) began, which was observed by massacres. Again, the entire territory of Karabakh, including Shusha, was chosen as the target.*

*In such a complex historical period, with the establishment of three independent republics in the South Caucasus in May 1918, relations between Armenians and Azerbaijanis in Shusha became even more tense. Armenians living in the mountainous part of Karabakh tried to declare its "independence" on July 22, 1918. Karabakh, which is historically inhabited by the Azerbaijani people, was a matter of life and death for the Azerbaijan People's Republic. Karabakh, historically inhabited by the Azerbaijani people, was a matter of life and death for the Azerbaijan People's Republic. Concession of Karabakh and its center Shusha to Armenians or any decision in favor of Armenians has never been a subject of discussion. The newly established state, during the 23 months of its existence, it duly resisted the constant threat from Armenia. Azerbaijan newspaper, the official organ of the government, wrote about this issue: "When Baku forms the body of our country, Karabakh forms the soul of Azerbaijan, its taste. If Baku supports Azerbaijan financially, it is known to everyone that Karabakh supports it spiritually. If I say that it was Karabakh and Karabakh that gave the Azerbaijani Turks spiritual wealth, made them enlightened and intellectual, I think no Azerbaijani would deny that. Therefore, keeping Karabakh firmly in our hands is a matter of life and death for us."*

***Keywords:*** *Karabakh, Shusha, Azerbaijan People's Republic, Azerbaijan Newspaper.*

## Giriş – Qarabağın Tarixinə Qısa Baxış

*"Bir gün gələcək şəmsi - həqiqət doğacaqdır,*
*Şərqin bu əsir validəsi hürr olacaqdır"*
***Şuşa şəhərinin ziyalı xanımları. Şuşa, 1918-ci il***

Bütün tarix boyu bütövlükdə azərbaycanlıların yaşadığı ərazi olan Qarabağ tarixi-etnoqrafik eyalet kimi əvvəlcə Albaniyanın tərkibinə daxil olmuş, sonra bütün tarixi Azərbaycan torpaqları ilə birlikdə ərəb xilafəti tərəfindən işğal edilmiş, xilafətin süqutundan sonra isə IX-X əsrlərdə Sacilər, X əsrdə Salarilər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy-Eldənizlər, Ali monqol xaqanlığının (1239–1256), sonra isə Hülakülər (Elxanilər) (1256–1357), Qaraqoyunlu (1410-1467), Ağqoyunlu (1468-1501) və Səfəvilər (1501-1576) dövlətlərinin tərkibinə daxil olmuşdur.[1]

Səfəvilər Azərbaycanda 4 bəylərbəyilik yaradır ki, onlardan biri də Qarabağ vəya Gəncə bəylərbəyliyi idi. Sonuncu Səfəvi hökmdarı III Abbası devirərək hakimiyyətə gələn Nadir şah əfşarın (1736–1747) ölümündən sonra isə Azərbaycanın feodal dövlətlərə-xanlıqlara parçalanması zamanı Qarabağ bəylərbəyiliyi ərazisində Qarabağ və Gəncə xanlıqları yaranmışdı. Məhz bu tarixi dövrdə Qarabağ xanı Pənahəli xan (1693-1763) tərəfindən alınmaz qala olan Şuşa şəhərinin əsası qoyulmuşdu.[2]

XIX əsrin əvvəllərində Qarabağ xanlığı Rusiya tərəfindən işğal edilərək yerində Qarabağ əyaləti təşkil olundu. 10 aprel 1840-cı il inzibati-məhkəmə islahatına görə Cənubi Qafqaz inzibati cəhətdən iki hissəyə bölündü. Birincisi mərkəzi Tiflis şəhəri olmaqla Gürcüstan-İmeretiya quberniyası, ikincisi mərkəzi Şamaxı şəhəri olan Kaspi vilayəti. Şimali Azərbaycan torpaqlarının böyük hissəsi, o cümlədən Qarabağ torpaqları Kaspi vilayətinin tərkibində qaldı.[3]

[1] *Azərbaycan Sovet Ensiklopediyası:* III c., Bakı, 1979, s. 45

[2] *Qarabağnamələr.* I kitab. Bakı, "Şərq-Qərb", 2006, s. 183

[3] *Полное собрание законов Российской империи.* Собр. 2-е. Т. 15. Ч. 1. Санктпетербургъ, 1841 (З. № 13368), s. 237.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 219-234

1867-ci ildə isə Qarabağ torpaqları yeni yaradılan Yelizavetpol quberniyanın tərkibində Şuşa və Zəngəzur qəzalarında birləşdirilmişdi.[4] 1873-cü ildə Yelizavetpol quberniyasının tərkibində daha iki qəza–Cavanşir və Cəbrayıl qəzaları yaradıldı. Həmin qəzalar da keçmiş Qarabağ torpaqlarını əhatə edirdi.[5] Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti yaranana kimi bütün Qarabağ torpaqları Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının tərkibində olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Qarabağ 1923-cü ildə muxtariyyət almış və Muxtar Dağlıq Qarabağ Vilayəti və ya Azərbaycanın yeni sərhədləri daxilində qısaca olaraq Dağlıq Qarabağ adlanmışdı.[6]

**Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi**

Ermənilər Azərbaycana qarşı ərazi iddiası irəli sürərkən tez-tez "demoqrafik prinsipləri" əsas gətirirlər. Bu "prinsipin" arxasında duran həqiqət isə məqsədli siyasətin nəticəsi idi. Belə ki, Rusiya 1804-1813, 1826-1828-ci illərdə Rus-İran müharibəsindən və 1828-1829-cu illərdə Rus-Türk müharibəsindən sonra İranda və Osmanlı imperiyası ərazisində yaşayan erməniləri kütləvi surətdə köçürərək Azərbaycan ərazisində yerləşdirməklə gələcəkdə ermənilərin ərazi iddialarını həyata keçirmələri üçün real zəmin yaratmış oldu. N. N. Şavrov «Zaqafqaziyada rus işinə təhlükə» kitabında göstərirdi: «1826-1828-ci illər müharibəsindən sonrakı iki ildə 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40000 İran ermənisi, 8400 Türkiyə ermənisi köçürülmüşdür və onlar erməni millətinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında... yerləşdirilmişdir. Köçkünlərin ən çoxu ermənilərdir. İndi Zaqafqaziyada yaşayan 1 mil.300 min nəfərdən 1 milyonu diyarın yerli əhalisi deyil, gəlmədir".[7] Belə köçürmə siyasəti nəticəsində ermənilərin sayı sözsüz ki, Qarabağın gözü olan Şuşa qəzasında da artmağa başlamışdır. Ermənilərin Azərbaycana və xüsusilə Qarabağa köçürülməsi ilə Azərbaycan tarixində faciəli və ziddiyyətli bir dövrün başlanmasının əsası qoyuldu. Bu erməni millətçilərinə «Böyük Ermənistan» yaratmaq ideyasını həyata keçirmək üçün zəmin olmuş, bu yolda isə məhz Qarabağ əsas hədəf seçilmişdi.

**"Böyük Ermənistan" ideyasının gerçəkləşməsinə gedən yol: Azərbaycanlılara qarşı həyat keçirdilən etnik təmizləmə siyasəti**

Məqsədi, silah və güc tətbiqi ilə erməni dövləti qurmaq olan "Daşnaksutyun" partiyası "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün hələ XX əsrin əvvəllərində müxtəlif tədbirlərə əl atırdı. Belə tədbirlərin önündə Azərbay-

---

[4] *Полное собрание законов Российской империи.* Собр. 2-е. Т. 42. Ч. 2. Санктпетербургъ, 1841 (З. № 45259), s. 382-283

[5] Мильман Арон Шмулевич. *Политический строй Азербайджана в XIX – начале XX веков (административный аппарат и суд, формы и методы колониального управления).* Баку, 1966, s. 157

[6] Гулиев, Д.П.: *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР 1918-1925.* Документы и материалы. Баку, Азернешр, 1989, s. 95

[7] Шавров, Николай Николаевич. *Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам.* С.-Петербург: Рус. собрание, 1911, s. 63-64

canlıların etnik təmizlənməsinin həyata keçirilməsi planı gəlirdi. Etnik təmizlənmə planının ilk mərhələsi Birinci rus inqilabı dövründə (1905-1906-cı il) həyata keçirildi. Kütləvi surətdə azərbaycanlıların qırğınları törədilərkən Qarabağ, eləcə də Şuşa əsas hədəflərdən biri seçilmişdi.

1917-ci ildə Rusiyada baş vermiş Fevral burjua-demokratik inqilabından sonra Cənubu Qafqazda yaranan kəskin siyasi hadisələr fonunda etnik təmizlənmə siyasətinin kütləvi qırğınlarla müşahidə edilən ikinci mərhələsi (1918-1920) başlandı. Yenə də, Şuşa daxil olmaqla bütün Qarabağ ərazisi hədəf seçildi.[8]

Belə bir mürəkkəb tarixi dövrdə milli dövlətçiliyimizin tarixində mühüm yer tutan Azərbaycan Xalq Cümhuriyyəti yarandı və çox çətin şəraitdə fəaliyyət göstərdi. Yeni qurulmuş dövlət başqa sahələrdə olduğu kimi, ölkənin ərazi bütövlüyünün qorunması sahəsində də ciddi sınaqlarla qarşı-qarşıya qaldı. Ermənistan tərəfdən daimi xarakter alan təhlükəyə qarşı mövcud olduğu 23 ay ərzində "Ermənistanın Qarabağa ümid etməsi degil "samoopredeleniye" əsasına, hətta ən ibtidai məntiqə belə sığmaz bir röyadır" deyərək layiqincə müqavimət göstərdi.[9]

**Ermənilərin tarixi Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları**

Qeyd edək ki, ermənilər XIX əsrdən etibarən Azərbaycanın tarixi torpaqları olan Qarabağ, Naxçıvan, İrəvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün ciddi cəhdlər göstərirdilər. 1918-ci ildə daxili və beynəlxalq vəziyyətində yaranmış mürəkkəb və ziddiyyətli şərait Cümhuriyyət qurucularını İrəvanı ermənilərə güzəştə getmək məcburiyyəti ilə üz-üzə qoydu.[10] Amma ermənilər tərəfindən Zəngəzur və Qarabağı ələ keçirmək planı Azərbaycan hökumətinin həyata keçirdiyi sarsılmaz tədbirlər nəticəsində baş tutmadı. "Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5 ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq – Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir… Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə, biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq». Bu fikri Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri olmuş əlimərdan bəy Topçubaşov Osmanlı dövlətinin xarici işlər naziri Rəşad Hikmət bəylə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı bildirmişdi.[11]

Bəhs edilən bu tarixi hadisələr o dövrün mətbuat səhifələrində geniş işıqlandırılmışdır. Azərbaycanda milli istiqlal elan edildikdən sonra milli mətbu-

[8] *Erməni vəhşilikləri* (1905-1906)-(1918-1920). Bakı, 2009, s. 48

[9] Əli Yusif, "Məqsədləri nədir?", *Azərbaycan*, 3 şəbat, 1919, №104, s. 2

[10] Rüxsarə Quliyeva, "İrəvanın Ermənilərə Verilməsinə Osmanlı Siyasi Dairələrində Münasibət," 9. Milletlerarası Türkoloji Kongresi Bildiriler Kitabi, Mart 2023, s. 909-918

[11] Натиг Мамедзаде. *Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана: 1918-1920.* Баку, «Элм», 2017, s. 11

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 219-234

atın qarşısında yeni vəzifə daxili və xaric təhlükələrə qarşı ideoloji mübarizə aparmaqdan ibarət idi. Təbii ki, dövri mətbuat dövlətin danışan dili, ictimai-siyasi vəziyyəti tənzimləyən vasitə olduğu üçün cəmiyyət bütün dövrlərdə onun varlığına böyük ehtiyac duymuşdur. 1918-ci il sentyabrın 15-də Gəncədə rəsmi dövlət orqanı olan "Azərbaycan" qəilk nömrəsinin çapdan çıxması da bu zərurətdən irəli gəlirdi. Qəzet Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi orqanı idi, dövlət tərəfindən maliyyələşirdi və dövlət mətbəəsində gündəlik nəşr olunurdu. Bu mətbu orqana müxtəlif vaxtlarda Üzeyir Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Ceyhun Hacıbəyli redaktorluq etmişdi.[12] Azərbaycan dövlətinin siyasi-ictimai, əxlaqi-mənəvi maraqlarını qorumaq uğrunda apardığı mübarizə istiqlalçı mətbu orqanların əsas devizi idi. Bütün dönəmlərdə ermənilərin törətdikləri zorakılıq hərəkətləri, daşnakların vəhşilikləri qəzetin aparıcı mövzusu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Qarabağda, xüsusən də Şuşada törətdikləri cinayətlərin mahiyyətini düzgün təhlil etmək və qiymətləndirmək üçün bu qəzetdə verilən materiallara müraciət etmək kifayətdir.

Rusiya imperiyasından miras qalmış inzibati ərazi bölgüsü ilə əhalinin milli tərkibi arasında uyğunsuzluq Azərbaycan və Ermənistan respublikaları arasında sərhədlərin müəyyənləşdirilməsində kəskin ziddiyyətlərin meydana çıxmasına səbəb oldu və bu ziddiyyətlər sonradan iki qonşu respublika arasında kəskin münaqişəyə gətirib çıxartdı. Azərbaycan hökuməti Ermənistanla münaqişəni nizama salmaq üçün dəfələrlə işğalçılıq hərəkətlərindən əl çəkməsi üçün müraciət etmiş və sülh təklifləri irəli sürmüşdü. Lakin Ermənistan hökumətinin Azərbaycan torpaqları hesabına öz ərazilərini daha da genişləndirmək istədiyi üçün bu təklifə etinasız yanaşmış, Zəngəzurda, Qarabağda azərbaycanlılara qarşı kütləvi qırğınlar təşkil etmişdi.

1918-ci ildə ermənilər konkret olaraq nə istəyirdilər? Bu torpaqların yenicə yaranmış Ermənistan Respublikasına birləşdirilməsini, yaxud eyni mahiyyət, fərqli üslub? Bu suallara aydınlıq gətirmək üçün Azərbaycan qəzetinin səhifələrində problemlə bağlı gedən yazılara nəzər salaq. 1918-ci ilin mayında Cənubi Qafqazda üç müstəqil respublikanın yaranması ilə Şuşada da erməni və azərbaycanlılar arasında münasibətlər gərginləşdi. Qarabağın dağlıq hissəsində yaşayan ermənilər 1918-ci il iyulun 22-də onun "müstəqilliyini" elan etməyə cəhd göstərirlər. Bu hadisə Azərbaycan qəzetində Xəlil İbrahimin imzası ilə belə təsvir edilmişdir: "Qafqasiyədə hərc-mərclik başlandığı zamandan bəri Qarabağ erməniləri guya bütün Qafqasiyadan ayrılmış, bir guşəyə çəkilmiş kimi bir vəziyyət alaraq, nəhayət Zaqafqasiyada üç cümhuriyyət elan edildikdə bunlar heç birisini tanımaq istəmiyərək müstəqil Qarabağ hökuməti təşkil etmək istədilər, həm indilərdə. Fəqət müsəlmanlar böylə bir hökuməti görmək, tanımaq istəmədilər. Bundan dolayı məhəlli türklər ilə ermənilər arasında süstlük, soyuqluq və narazılıq başlanaraq nəhayət, müsəlləh müsadiməyə müncir olmaq dərəcəsinə gəldi. Müsəlmanları Qarabağ hökuməti təşkilinə Qarabağ cümhuriyyəti elanına məcbur etmək məqsədilə ibtida qonşuları-

[12] Akif Aşırlı. *Azərbaycan mətbuatı tarixi: 1875-1920.* Bakı, Elm və tə hsil, 2009, s. 121

mız şirin sözlər, böyük vədlər və sairə kimi aldatmalara təvəssül etdilər. Lakin böylə təşəbbüslərin hədər və bisəmər olduğunu görüncə təşəbbüsati-təcavüzkaranəyə iqdam etdilər."[13]

Tarixən Azərbaycan xalqının məskun olub yaşadığı Qarabağ isə Cümhuriyyət üçün ölüm-dirim məsələsi idi. Qarabağın ermənilərə güzəşt edilməsi və ya ermənilərin xeyrinə burada hər hansı bir qərar verilməsi heç vaxt müzakirə mövzusu olmamışdır. Hökumətin rəsmi orqanı olan Azərbaycan qəzetində bu məsələ ilə bağlı yazılırdı: "Bakı məmləkətimizin cismini, bədənini təşkil etdikdə, Qarabağ Azərbaycanın ruhunu, onun zövqünü təşkil edir. Bakı Azərbaycanı maddi cəhətdən təmin edirsə, hərkəsə məlumdur ki, Qarabağ onu mənəvi cəhətdən təmin edir. Azərbaycan türklərinə ruhi və mənəvi bir sərvət verən, onları ziyalı və intellektual qüvvələrə malik edən Qarabağ və yenə də Qarabağ olmuş desəm, bunu heç bir azərbaycanlı inkar etməz deyə düşünürəm. Bunun üçün Qarabağı əlimizdə bərk-bərk saxlamaq bizim üçün həyat və ölüm məsələsidir".[14]

Millətçi erməni generalı Andronikin[15] qədim Azərbaycan torpaqları olan Zəngəzurda və Qarabağda işğalçılıq hərəkətlərini genişləndirməsi əvvəldə qeyd etdiyimiz kimi yenicə yaranmış olan müstəqil Azərbaycan və Ermənistan Respublikaları arasında münasibətləri kəskinləşdirdi. Azərbaycan hökuməti o vaxt dəfələrlə Ermənistan hökumətinə bu işğalçılıq hərəkətlərindən əl çəkməsi üçün müraciət etmişdi. Ermənistan hökuməti isə Androniki rədd edib: "Onun bizə heç bir dəxli yoxdur, xudsər (özbaşına) bir adamdır" – deyə, cavab vermişdi.[16]

### Şuşa – Qarabağ hadisələrinin əsas mərkəzi kimi

1918-ci ildə Qarabağda baş vermiş qanlı hadisələrdən bəhs edərkən Şuşada baş verən hadisələrdən xüsusi bəhs edilməlidir. Çünki, Andronikin agentləri Qarabağda erməni əhalisini qiyama təhrik etdikdən sonra Şuşa daşnaklar tərəfindən "Qarabağ Respublikası"nın paytaxtı elan edilmişdi. Andranik şəxsən dəfələrlə bu alınmaz şəhəri tutmağa cəhd göstərmiş və hər dəfə də böyük itkilər verib məğlub olaraq istinadgahı olan Gorusa geri çəkilməyə məcbur olmuşdu.[17]

Bəs Şuşa əhalisi buna necə nail olmuşdur? 1918-ci ilin qanlı hadisələri, bütün Qarabağda olduğu kimi, Şuşada da mürəkkəb vəziyyət yaratmışdı. O zaman 40 minlik Şuşa əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət idi. Şəhər hər tərəfdən ermənilərin yaşadığı 12 kənd ilə əhatə olunmuşdu. Onların arasında azərbaycanlıların yaşadığı yeganə kənd Malıbəyli idi.[18]

---

[13] Xəlil İbrahim, "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 16 təşrini-əvvəl, 1918, №16, s. 2

[14] "Baki, 20 məhərrəm ", *Azərbaycan*, 7 təşrini-sani, №33, 1918, s. 1

[15] 1918-ci ildə əsasən Qarabağ və Zəngəzurda azərbaycanlıların yaşadıqları kəndlələrin dağıdılmasında və əhalisinin qırğınında Andranik Ozanyanın başçılıq etdiyi dəstə böyük rol oynamışdır.

[16] Üzeyir Hacıbəyli, "Qarabağ haqqında", *Azərbaycan*, 20 kanuni-sani, №101, 1919, s.1

[17] "Azərbaycan Məclisi-Məbusanında", *Azərbaycan*, 22 kanuni-əəvvəl, №70, 1918, s.1

[18] Xəlil İbrahim, "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 16 təşrini-əvvəl, 1918, №16, s. 2

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 219-234

1918-ci ilin mayında Zaqafqaziyada üç müstəqil respublikanın yaranması ilə Şuşada da erməni-azərbaycanlı münasibətləri gərginləşdi. Ermənilər, "Qarabağ Respublikası" yaratmaq planı ilə azərbaycanlıların razılaşmasına nail olmaq üçün əvvəlcə şəhərə gələn bütün yolları bağlamışdılar. İlk olaraq Əsgəran yolunu bağladılar. Nəticədə Ağdamla əlaqələr kəsildi. 4 ay ərzində şəhərə ərzaq daxil olmamış, şəhərdən çıxmaq istəyənlər qətlə yetirilmişdilər. Andronikin və Varanda partizanlarının başçısı Sokrat-bek Melik-Şahnazaryanın qoşunlarının şəhərə yaxınlaşması xəbəri Şuşa ermənilərinin xüsusilə azğınlaşmasına səbəb olmuşdu. Onlar təkcə şəhər ətrafında deyil, şəhərdə də azərbaycanlıları sıxışdırmağa başlamışdılar. Silahlanmış halda şəhərin azərbaycanlı hissəsinə sərbəst gəlib-gedir, lakin erməni hissəsinə gedən azərbaycanlıları tərksilah edirdilər. Ona görə də Qarabağın bütün şəhərləri və kəndlərində erməni və azərbaycanlı əhali arasındakı əlaqələr tamamilə kəsilmişdir. Şuşaya gedən bütün yollar bağlandığından aclıq təhlükəsi yaranırdı. Ermənilər məhz aclığın köməyi ilə azərbaycanlıları "Qarabağ Cümhuriyyəti"ni tanımağa məcbur etmək niyyətində idilər.[19]

Ermənilərin "Qarabağ cümhuriyyəti" elan etmək və bu yolda ciddi-cəhdlə çalışdıqları bir vaxtda Azərbaycan hökuməti minbaşı Həsən Bəsri bəyi Şuşaya, Kazım bəyi Qaryaginə (Füzuli), Fəxri bəyi isə Ağdama komendant təyin etdi. Bu ziddiyyətləri yenidən gərginləşdirdi. Şuşanın erməni əhalisi komendantların hakimiyyətini tanımadılar, azərbaycanlılar isə o vaxt mövcud olan hökumət müəssisələrini tərk edərək bütün hökumət işlərini Həsən Əfəndiyə təhvil verdilər. Şəhərin erməni əhalisi bir müddət köhnə hökumət idarələrində fəaliyyətlərini davam etdirdilər. Nəticədə Şuşada ikihakimiyyətlilik yarandı. Bir müddət sonra ermənilər iki həftə davam edən Qarabağ erməni Qurultayı təşkil etdilər. Qurultay şəhərin erməni əhalisinin siyasətini təqdir edərək, işlərini eyni ruhda davam etmələrini tövsiyə edib, "Qarabağ hökuməti"ni təşkil etdi və nazirləri seçdi. Qurultayda ermənilərin həqiqi siması açıldı. İndiyə kimi səsləndirdikləri sosializm, demokratiya. ədalət və s. kimi şuraları kənara ataraq fanatik daşnak sifəti ilə çıxış etməyə başladılar və bütün inzibati vəzifələri millətçi daşnaklar arasında bölüşdürdülər. Yeganə həll edilməmiş məsələ Şuşanın azərbaycanlı əhalisinin zorla, silah yolu ilə yaratdıqları qondarma "hökumət"ə tabe edilməsi idi. Bunun üçün isə onlar Andronikin və Şahnazaryanın qoşunlarının gəlməsini gözləyirdilər.[20]

Ermənilərin bu addımlarının silahlı toqquşmaya səbəb olacağını dərk edən şəhər əhalisi "sülh istəyirsənsə, hərbə hazır ol" prinsipini əsas tutaraq müqavimət üçün hazırlaşmağa başladı. AXC hökumətinin gərgin beynəlxalq və daxili vəziyyəti mövcud duruma dərhal müdaxilə etməyə imkan vermirdi. Belə ağır zamanda əhalinin özünü müdafiə etmək üçün tədbirlər görməkdən başqa çarəsi qalmırdı. Qeyd edək ki, çar hökumətinin erməni vəhşiliklərinin qarşısını almaq üçün heç bir tədbir görməməsi XX əsrin

---

[19] Xəlil İbrahim, "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 16 təşrini-əvvəl, 1918, №16, s. 2

[20] Yenə orada, s. 3.

əvvəllərindən etibarən əhalinin erməni təcavüzündən özünü qorumaq təcrübəsini formalaşdırmışdır. Bu baxımdan Şuşada yaşayan azərbaycanlı əhalinin müdafiə sahəsində gördüyü işlər xüsusilə təqdirəlayiqdir. Hələ Həsən Bəsri bəyin gəlməsindən əvvəl onlar "Ənvəriyyə", "Şövkətiyyə", "Xəliliyyə" və tələbələrdən ibarət "Vəhəbiyyə" adlı 4 könüllü dəstə yaratmış, 15 yaşından 60 yaşınadək bütün silah tuta bilən kişiləri siyahıya almışdılar. Gənclər "Hərəkət ordusu" adlı dəstələrə cəlb edilmiş, 40 yaşından yuxarı olanlar isə ehtiyata götürülmüşdü. Əhalini silahlandırmaq üçün 14 məhəllə komitəsi yaradılmışdı. Hər komitə öz məhəlləsində yaşayan və imkanı olan şəxslərin öz hesabına, imkanı olmayanlar üçün isə pul yığıb silah alma məsələsini həll edirdi. Komitələrin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində, Şuşada hamı silahlandı, hər məhəllədə on minlərlə güllə ehtiyatı və yüzlərlə tüfəng toplandı.[21] Müdafiə hazırlığı üçün "Hərbi idarə" təsis olunaraq şəhərin bütün müdafiə işləri ona tapşırılmışdı. Bu idarənin nəzdində "Ərzaq idarəsi" də yaradılmışdır. Şuşaya gedən yolların bağlı olması səbəbindən şəhərə kənardan ərzaq gətirilə bilmirdi. Mövcud ərzaq ehtiyatı isə günü-gündən tükənirdi. Belə bir şəraitdə "Ərzaq idarəsi"nin fəaliyyəti əslində iflic vəziyyətinə düşmüşdür Bundan əlavə toqquşmaların olacağı təqdirdə yaralıların olması faktı qaçılmaz idi. Bunu nəzərə alaraq xəstəxana və "Şəfqət qardaşları" kursu açıldı. Bu kursda 26 tələbə təhsil alaraq ilkin tibbi yardımı öyrəndi. Yeni açılan xəstəxananın bütün işlərini "Milli Müdafiə"[22] cəmiyyəti öz üzərinə götürmüşdür.[23]

Çar hakimiyyəti dövründə qəsdlə hərbi xidmətə çağırılmayan Azərbaycan əhalisi sözsüz ki, bu sahədə təcrübəyə sahib deyildi. Bu ciddi nöqsan idi. Tezliklə bu problemin həlli üçün tədbirlər həyata keçirildi. Şuşada olan zabitlər gənclərə hərbi təlim keçməyə başladı, bu məqsədlə qərargah yaradılmışdı.

Ətrafdakı erməni kəndlərdən gözlənilən hücumun qarşısını almaq üçün tədbirlər görülmüş, şəhərin azərbaycanlı hissəsi dörd tərəfdən səngərlərlə əhatə olunmuşdu, səngərlərdə gecə-gündüz keşikçilər qoyulmuşdu. Şuşa qurulmuş müdafiə istehkamları ilə iki hissəyə ayrılmışdı. Şəhər hərtərəfli hər an baş verə biləcək hücuma qarşı hazırlıqlı vəziyyətə gətirilmişdir.[24] Şəhəri savaşa hazırlamaq, eyni zamanda toqquşmaların olacağı təqdirdə dinc əhalinin zərər görməməsini təmin etmək üçün görülən işlər təqdirəlayiq olduğu qədər də çətin idi.

Şuşanın ciddi cəhdlə toqquşmaya hazırlaşmasına baxmayaraq mövcud problemi hələ də sülh yolu ilə həll etməyə çalışmaq istəyi də var idi. Qeyd

---

[21] Xəlil İbrahim, "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 21 təşrini-əvvəl, 1918, №18, s. 4.

[22] "Milli Müdafiə" cəmiyyəti Şuşada təşkil edilmişdir. Qısa bir müddət ərzində mövcud olmasına baxmayaraq həmən təlatümlü dövrdə çox böyük işlər görmüş, əhali arasında böyük nüfuz və etibara sahib bir cəmiyyət olmuşdur.

[23] Xəlil İbrahim, "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 22 təşrini-əvvəl, 1918, №19, s. 2.

[24] Xəlil İbrahim, "Təhlükə qarşısında. Qarabağın son günləri," Azərbaycan, 21 təşrini-əvvəl, 1918, №18, s. 4.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 219-234

edək ki, sülh tərəfdarları içərisində az da olsa ermənilər də var idi. Azərbaycanlılar və ermənilərə arasındakı münasibətləri dinc yolla nizama salmaq üçün sülh tərəfdarları "Beynəlmiləl Komitə" yaratdılar. Bu komitəyə altı azərbaycanlı və altı erməni daxil idi. Fəaliyyət göstərdiyi müddətdə komitə azərbaycanlı və erməni əhalisi arasında baş verən ixtilafları yatırmaqda, problemli məsələləri sülh yolu ilə həll etməkdə, şəhərdə asayiş və dincliyi bərqərar etməkdə xeyli ciddi işlər gördü. Ermənilər elatın qışlaqdan yaylağa gəlməsinə böyük əngəl törədirdi. Komitənin köməkliyi ilə onların köçü təhlükəsiz baş tutmuşdu.[25] Ümumiyyətlə, komitə Şuşada baş verə biləcək 3-4 qanlı toqquşmanın qarşısını ala bilmişdir.

Şəhərdə ərzağın, suyun çatışmadığı, Andronik və Şahnazaryanın qoşunlarının gəlməsi və şəhərdə qanlar sel kimi axıdılması gözlənən bir zamanda Qurban bayramı axşamı Bakının türk və Azərbaycan qoşunları tərəfindən azad edilməsi xəbəri Şuşanın müdafiəçiləri arasında böyük ruh yüksəkliyi ilə qarşılanmışdı. Onlar bu böyük qələbəni vəziyyətin bütün mürəkkəbliyinə baxmayaraq iki gün təmtəraqla bayram kimi qeyd etmişdilər. Üçüncü gün Şahnazaryanın qoşununun Şuşaya hücum etməsi xəbəri bütün şəhərə yayılır. "Beynəlmiləl komitə"nin azərbaycanlı üzvləri quldur erməni dəstlərinin şəhərə daxil olmasının qarşısını almaq üçün ermənilərlə danışığa başlayırlar. Amma bu danışıqlar heç bir nəticə vermir. Əksinə, ermənilər Şahnazaryanın quldur dəstələrinə kömək etmək üçün əllərindən gələn heç nəyi əsirgəmədilər.

Bu zaman Şuşanın azərbaycanlı əhalisini sevindirən ikinci bir hadisə baş vermişdi. Həmin sevinci onlara bu dəfə ermənilər "bəxş etmişdilər". Şuşaya yaxınlaşan və təbii dayaq məntəqəsi olan Qaladərədə Şahnazaryanın quldur dəstəsi burada Şuşadan gələn erməni dəstələri ilə birləşməli, sonra isə Şuşa üzərinə yeriməli idilər. Bu plan kürd süvarilərinə məlum olmuş və onlar Şahnazaryanın dəstəsinə hücum edərək onu pərən-pərən salmışdılar. Bunu görən Şuşa erməniləri tələsik geri dönərək, səhvən onları azərbaycanlı dəstələri hesab etmiş öz erməniləri tərəfindən gülləyə tutulmuşdular.[26] Beləcə, Şahnazaryanın Şuşa üzərinə hücum etmək və azərbaycanlı əhalini qanına qəltan etməklə bağlı mənfur planı iflasa uğramışdır

Şuşada isə vəziyyət yenə gərgin olaraq qalırdı. Hər dəqiqə savaş, iğtişaş baş verə bilərdi. Əhalinin 90 faizi isə yolların bağlı olması səbəbilə aclıq çəkirdi. Azərbaycanlı əhali artıq bu durumdan xilas olmağın yeganə yolunu savaşda görürdü – dava düşsəydi, canımız qurtarardı, ya ölər, ya ermənilərin boyunduruğundan xilas olardıq – deyə, ölmək şərti ilə də olsa ermənilərdən xilas olmağı arzulayırdılar.[27]

---

[25] Xəlil İbrahim, "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 22 təşrini-əvvəl, 1918, № 19, s. 2.

[26] Xəlil İbrahimzadə, "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 23 təşrini-əvvəl, 1918, №20, s. 3.

[27] Yenə orada, s. 3.

Belə bir vaxtda Qarabağdakı hərbi birləşmələrin komandiri İsmayıl Həqqi bəy məktub yazaraq ermənilərdən Ağdama nümayəndə göndərməyi tələb etdi. Qeyd edək ki, Bakının azad edilməsindən bir neçə gün sonra Qafqaz İslam Ordusu[28] Qarabağ bölgəsində erməni-daşnak qüvvələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi qırğınların qarşısını almaq üçün ora köməyə yollandı. 1918-ci il sentyabrın 15-də Bakıya daxil olan türk ordusu iki həftə sonra Qafqaz İslam Ordusunun Gelibolu alayının polkovniki Cəmil Cahid Toydəmirin başçılığı altında Şuşaya istiqamətlənir və Ağdamda toplaşırlar. Qarabağa göndəriləcək dəstəni yola salandan sonra Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa şəxsən özü də Ağdama gəlmiş, burada vəziyyətlə tanış olmuş, Cəmil Cahid bəylə fəaliyyət planını dəqiqləşdirmişdi.

İsmayıl Həqqi bəyin məktubundan sonra Ağdama nümayəndə qismində gedən 5 ermənidən üç nəfəri orada saxlanılır, iki nəfər isə növbəti gün Şuşaya göndərilərək ermənilərin təslim edilməsi xəbərini çatdırmaları tapşırıldı. Onlar bu tapşırığı müzakirə etmək üçün beş gün ərzində qızğın müzakirələrin getdiyi iclas etdilər. Nəhayət, beşinci gün axşam saat 9-da “Beynəlmiləl komitə”nin erməni nümayəndələri məsələnin müsbət yöndə həll edilməsi xəbərini verdilər. Növbəti gün Ağdamda qalan üç erməni də Şuşaya qayıtdı. Onlar 24 saat ərzində ermənilərin təslim edilməsi ilə bağlı ultimatumu əhaliyə çatdırdı. Həmən gün bir neçə erməni Şuşa komandanının hüzuruna gələrək silah-sursatlarını təhvil verdilər və Azərbaycan hökumətinə təslim oldular. Növbəti gün isə Ağdama nümayəndə göndərilərək ermənilərin təslim xəbərini İsmayıl Həqqi bəyə və Cəmil Cahid Toydəmir bəyə xəbər verirlər.

Bəli, 1918-ci ildə Şuşanın azərbaycanlı əhalisinin qətiyyətli hərəkətləri şəhərin düşmən tapdağı altına düşməsinə yol verməmiş, onu ləyaqətlə qorumuşdu. Tezliklə şuşalıların bu fədakarlığı layiqincə qiymətləndirildi. İsmayıl Həqqi bəyin və Cəmil Cahid Toydəmir bəyin başçılığı altında şəhərə yaxınlaşan türk və Azərbaycan qoşunları 1918-ci il sentyabrın 25-də Şuşanı ermənilərin mühasirəsindən xilas edərək şəhərə daxil oldular. Türk ordusuyla savaşmağa cəsarət etməyən, Şuşanı mühasirədə saxlayan Andranikin quldur dəstəsi cənuba qaçır. Tezliklə türk qoşunlarının gələcəyini eşidən şəhərin azərbaycanlı əhalisi tələsik müttəfiqlərin təntənəli şəkildə qarşılanmasına hazırlaşmağa başladılar. Şuşaya girişdə Zəfər tağı qoyulmuşdu. Bu cür tağlar Meydana aparan yolda bazarın başındakı Şah körpüsündə və bir çox digər yerlərdə də quraşdırılmışdı. Ermənilər də türklərin gəlişinə qədər şəhərin erməni hissəsini bəzəməyə başlamış, Beynəlxalq Komitənin binası qarşısında və Meydanın yuxarı hissəsində tağlar quraşdırmışdılar. Ordu şəhərdə böyük təmtəraqla, sevinc hissi ilə qarşılandı. Bakının azad edilməsi bayram edildiyi kimi, Şuşanın da xilası böyük bayram təntənəsi ilə qeyd edildi.[29]

---

[28] Bakı qırğınından sonra Azərbaycanın türk-müsəlman əhalisinə qarşı həyata keçirilən kütləvi qırğınların qarşısını almaq və Dağıstan müsəlmanlarına yardım etmək məqsədi ilə Osmanlı dövləti tərəfindən təşkil edilmiş hərbi struktur.

[29] Xəlil İbrahim, “Təhlükə qarşısında. Qarabağın son günləri,” *Azərbaycan*, 25 təşrini-əvvəl, 1918, № 22, s. 2.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 219-234

"Qarabağ Respublikası rəhbərləri"nin itaət göstərməkdən və Azərbaycan dövlətini tanımaqdan savayı yolu qalmadı. Şuşanı 4 ay müddətində qoruyub saxlamış müdafiəçilərinin fədakarlığı isə heç şübhəsiz, milli tariximizin şanlı səhifələrindən birini təşkil edir.

Türk ordusunun bu addımlarına baxmayaraq, Andranikin qoşunlarının tezliklə yeni hücuma keçəcəyi barədə müxtəlif şayiələr fonunda Qarabağda gərginlik azalmamış və türk qoşunlarının gedişinə qədər davam etmişdi, bundan sonra region üzərində nəzarət 1918-ci il noyabrın ikinci yarısında Azərbaycana gəlmiş ingilis qoşunlarının əlinə keçmişdi. Birinci Dünya müharibəsində Dördlər ittifaqı ölkələrinin təslim olması 1918-ci ilin oktyabr-noyabr aylarında türk qoşunlarının Cənubi Qafqazdan çıxarılmasına və bölgənin milli-dövlət strukturu üzərində nəzarətin Antanta ölkələrinin əlinə keçməsinə səbəb oldu. Bununla da Böyük Britaniyanın Cənubi Qafqazda dominant olduğu, milli respublikalar arasındakı ərazi ziddiyyətlərinin həllində və ya kəskinləşməsində həlledici rol oynadığı dövr başlayır.

Belə ki, Azərbaycan hökumətinin başçısı F.X Xoyskinin Böyük Britaniya kontingentinə başçılıq edən general V.Tomsona Andranik Ozanyanın Qarabağda törətdiyi vəhşiliklər barədə yazılı müraciəti əsasında[30] general 1918-ci il dekabrın əvvəllərində erməni komandirindən azərbaycanlı əhaliyə qarşı hərbi əməliyyatların dayandırılmasını tələb etmişdi.[31] Bundan başqa, V.Tomson Gəncə, Qazax və Cavanşir dairələrindəki erməni liderlərinə ünvanladığı teleqramda onları azərbaycanlı əhaliyə qarşı azğınlıq və talan hallarına son qoymağa çağırmışdı: "Bütün ermənilərə öz evlərində sakit oturmaları tapşırılsın. İtaətsizlik edəcəyiniz təqdirdə, tökülən qana görə birbaşa məsuliyyət daşıyacaqsınız".[32]

Ermənistandan olan emissarlar tərəfindən qızışdırılan separatçı meylləri, azərbaycanlı əhaliyə qarşı qanlı cinayətlər, arxasında ciddi hərbi güc olmadığı üçün yerli hakimiyyətin zəifliyi, habelə mərkəzi hökumətin regionla əlaqəsinin tam qaydaya salmaması Qarabağ general-qubernatorluğunun yaradılmasını zəruri etdi. "Aclıq, xəstəlik, yolsuzluq, asayişinin pozulması, narazılıq və sair bu kimi hadisələrin nəticəsi olaraq ortaya çıxan fövqəladə vəziyyətə Andronikin avantürası səbəb olmuşdur. Hökumətimizin Qarabağda general-qubernatorluq təşkil etmək tədbirinə məhz Andronikin hərəkətləri səbəb olmuşdur".[33] Şuşa-Zəngəzur, Cəbrayıl-Cavanşir qəzaları Qarabağ general-qubernatorluğunda birləşdirilərək Xosrov Paşa bəy Soltanov general-qubernator təyin edildi.[34] Şübhəsiz ki, bu qubernatorluğun yaradılması Britaniya komandanlığı ilə razılaşdırılmışdı.

Qarabağ general-qubernatorluğunun yarandığı ilk günlərdən Ermənistan hökuməti  bu qərara etiraz edərək bunun "Ermənistan ərazisi hüququ-

---

[30] "Rəisi-vükəla Fətəli xan Xoyski həzrətlərinin general Tomsona məktubu", *Azərbaycan*, 6 kanuni-əvvəl, №57, 1918, s. 2

[31] "Qəzetlərədn", *Azərbaycan*, 12 kanuni-əvvəl, №63, 1918, s. 3

[32] "General Tomsonun erməni başçilarina teleqrami", *Azərbaycan*, 3 kanuni-əvvəl, №55, 1918, s. 1

[33] Üzeyir Hacıbəyli, "Qarabağ haqqında", *Azərbaycan*, 30 kanuni-sani, №101, 1919, s. 1

[34] Xəlil İbrahim, "Şuşa-Zəngəzur-Cəbrayıl-Cavanşir-General-Qubernatorluğu", *Azərbaycan*, 9 şubat, №109, 1919, s. 3.

na təcavüz" adlandırdı. Azərbaycan hökumətinin isə cavabı gecikmədi. Ermənistan Xarici İşlər Nazirinə göndərilən teleqrafda deyilirdi: "Azərbaycan Cümhuriyyətinin Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını müvəqqəti general-qubernatorluğa ayırması qərarına görə sizin hökumətinizin protestosu əsassızdır. Çünki məzkur (adı çəkilən – Red) qəzalar Azərbaycanın ayrılmaz parçalarıdır. Azərbaycan hökuməti ali idarə qanununca öz torpağında olan əhalisinin bilafərq (fərq qoymadan – Red.) millət və məzhəb həyatını, namusunu və malını məsuliyyətsiz adamların keyf maitasından mühafizə etməsi bir tək hüququ degil, hətta vəzifəsidir. Buna görə bizim hökumətimizin məzkur qəzalara general-qubernator təyin etməsi Ermənistan hökumətinin hüquqi-mülkiyəsinə təcavüz degildir. Bilaəks (əksinə) sizin hökumətinizin bu münasibətlə protesto etməsi bizim daxili işlərimizə müdaxilə etmək təşəbbüsü olmaq üzrə həqqi-hakimiyyətimizə təcavüz deməkdir".[35]

Qarabağ general-qubernatoru ermənilərin ərazi iddiaları ilə yanaşı, əvvəlcə ingilislər, sonra isə amerikanlarla gərgin münasibətlər şəraitində fəaliyyət göstərməli oldu. Bu dövrdə də ermənilərin nə Şuşa üzərinə hücumu, nə də şəhərdə törətdikləri fitnə-fəsad ara vermədi. Təəssüf ki, ermənilər Qarabağ general-qubernatorluğu ərazisində sülh yaranmasına imkan vermədilər.

## Nəticə

1828-ci ildən etibarən Rusiya tərəfindən məqsədli şəkildə Azərbaycan torpaqlarına köçürülən ermənilər dövlət qurmaq məqsədi ilə XX əsrin əvvəllərindən etibarən müəyyən mərhələlərlə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş, deportasiyalar həyata keçirmişlər. Qarabağ, Naxçıvan, İrəvan və Zəngəzura iddialı olan ermənilər 1917-ci ildə Rusiyada baş vermiş Fevral burjua-demokratik inqilabından sonra Cənubi Qafqazda yaranmış mürəkkəb tarixi şəraitdən istifadə edərək, İrəvan torpaqlarının da daxil olduğu Ermənistan dövlətini yaratmağa nail olmuşdular. Sözsüz ki, bu onların iddialarının tam təminatı deyildi. Naxçıvan, Qarabağ və Zəngəzur hədəf olaraq qalırdı. Qarabağın dağlıq hissəsində yaşayan ermənilər 1918-ci il iyulun 22-də onun "müstəqilliyini" elan etməyə cəhd göstərmiş, məqsədlərinə çatmaq üçün yenidən dinc əhaliyə qarşı kütləvi qırğın törətməyə başlamışdılar. Belə bir ziddiyyətli dövrdə Qarabağın mərkəzi olan Şuşa ölüm-dirim mübarizəsinin mərkəzinə çevrilmişdi. Ermənilərin planı Azərbaycan hökumətinin həyata keçirdiyi sarsılmaz tədbirlər nəticəsində baş tutmamışdı. Yeni yaranmış dövlət mövcud olduğu 23 ay ərzində həm Ermənistanın ərazi iddialarını rədd etmiş, həm də erməni qiyamçılarını məğlub edərək dövlətin ərazi bütövlüyünü təmin etmişdir

Azərbaycanın sovetləşdirilməsi ərəfəsində problemin sülh yolu ilə həll edilməsinə tərəfdar olan Azərbaycan hökumətinin bütün diplomatik və si-

[35] *"Azərbaycan və Ermənistan"* (Xarici İşlər Naziri əvəzindən ədil xan Ziyadxanovun Ermənistan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqram), Azərbaycan, 9 şubat, №109, 1919, s.3

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 219-234

yasi səylərinə baxmayaraq, Ermənistanla Azərbaycan arasında Qarabağ və Zəngəzur ətrafında münaqişə dinc yolla həllini tapmadı. Sovetləşmədən sonra isə Zəngəzur ermənilərin xeyrinə itirildi.[36] Naxçıvan Muxtar Respublikaya çevrildi və ərazisinin 657 km$^2$-i Ermənistana verildi.[37] Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməklə[38] isə Ermənistana və onun himayədarlarına gələcək siyasi oyunlar üçün əlverişli imkan yaradıldı.

## ƏDƏBİYYAT SİYAHISI

AŞIRLI, Akif: *Azərbaycan mətbuatı tarixi: 1875-1920.* Bakı, Elm və təhsil, 2009. 296 s.

*"Azərbaycan Məclisi-Məbusaninda", Azərbaycan*, 22 kanuni-̦əvvəl, №70, 1918, s.1

*"Azərbaycan və Ermənistan"* (Xarici İşlər Naziri əvəzindən Ədil xan Ziyadxanovun Ermənistan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqram), Azərbaycan, 9 şubat, № 109, 1919.

*Azərbaycan Sovet Ensiklopediyası:* 10 cilddə /baş red. C. B. Quliyev; red hey. M. H. Abdullayev, M. T. Abbasov və b. III c., Bakı, 1979. 598 s.

*"Bakı, 20 məhərrəm "*, Azərbaycan, 7 təşrini-sani, №33, 1918

*Erməni vəhşilikləri (1905-1906) - (1918-1920).* Bakı, 2009, 48 s.

İBRAHİM, Xəlil: "Şuşa-Zəngəzur-Cəbrayıl-Cavanşir-General-Qubernatorluğu", *Azərbaycan*, 9 şubat, №109, 1919

İBRAHİM, Xəlil: "Təhlükə qarşısında. Qarabağın son günləri" *Azərbaycan*, 16 təşrini-əvvəl, 1918, №16

İBRAHİM, Xəlil: "Təhlükə qarşısında, Qarabağın son günləri" *Azərbaycan*, 21 təşrini-əvvəl, 1918, №18

İBRAHİM, Xəlil: "Təhlükə qarşısında, Qarabağın son günləri" *Azərbaycan*, 22 təşrini-əvvəl, 1918, №19

İBRAHİMZADƏ, Xəlil: "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 23 təşrini-əvvəl, 1918, №20.

İBRAHİM, Xəlil: "Təhlükə qarşısında. Qarabağın son günləri," *Azərbaycan*, 25 təşrini-əvvəl, 1918, №22.

General Tomsonun erməni başçilarina teleqrami", *Azərbaycan*, 3 kanuni-əvvəl, №55, 1918.

HACIBƏYLİ, Üzeyir: *"Qarabağ haqqında", Azərbaycan*, 30 kanuni-sani, 1919, №101.

"Qəzetlərədn", *Azərbaycan,* 12 kanuni-əvvəl, №63, 1918

"Rəisi-vükəla Fətəli xan Xoyski həzrətlərinin general Tomsona məktubu" *Azərbaycan*, 6 kanuni-əvvəl, №57, 1918.

YUSİF, Əli: *"Məqsədləri Nədir?" Azərbaycan*, 3 şubat, №104, 1919.

---

[36] Musa Urud. *Zəngəzur*, (Elmi-publisistik nəşr). Bakı: Nurlar, 2005, s. 91-92

[37] Ильгар Нифталиев, Азербайджанская ССР в Экспансионистских Планах Армян: 20-е годы XX Века. Баку: Təhsil, 2010, s. 120.

[38] Д. П. Гулиев, *К Истории Образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР 1918-1925. Документы и Материалы.* Баку, Азернешр, 1989, s. 95

*Qarabağnamələr*. I kitab. Bakı, "Şərq-Qərb", 2006, 216 səh.

QULİYEVA, Rüxsarə: "İrəvanın Ermənilərə Verilməsinə Osmanlı Siyasi Dairələrində Münasibət." *9. Milletlerarası Türkolojİ Kongresİ Bildiriler Kitabi*, 2023, 909–918. https://doi.org/10.26650/pb/aa10aa14.2023.001.061.

URUD, Musa: *Zəngəzur. (Elmi-publisistik nəşr).* Bakı, "Nurlar", 2005. 504 s□h.

ГУЛИЕВ, Д.П.: К Истории Образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР 1918-1925. Документы и Материалы. Баку, Азернешр, 1989, s. 95

МАМЕДЗАДЕ, Натиг: *Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана: 1918-1920.* Баку, «Элм», 2017, 342 с.

МИЛЬМАН, Арон Шмулевич: *Политический строй Азербайджана в XIX – начале XX веков (административный аппарат и суд, формы и методы колониального управления).* Баку, 1966, 316 с.

НИФТАЛИЕВ, Ильгар: *Азербайджанская ССР в Экспансионистских Планах Армян: 20-е Годы XX Века.* Баку: T□hsil, 2010

*Полное собрание законов Российской империи.* Собр. 2-е. Т. 15. Ч. 1. Санктпетербургъ, 1841 (З. № 13368).

*Полное собрание законов Российской империи.* Собр. 2-е. Т. 42. Ч. 2. Санктпетербургъ, 1841 (З. № 45259).

ШАВРОВ, Николай Николаевич: *Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам* . С.-Петербург: Рус. собрание, 1911. – 78 с

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 219-234

## Extended Abstract

### Events In Shusha During The Period Of The Azerbaijan People's Republic: Based On The Materials Of The Azerbaijan Newspaper

After the Russo-Iranian War in 1804-1813, 1826-1828 and the Russo-Turkish War in 1828-1829, by massively immigrating Armenians from Iran and from the Ottoman Empire and settling them in the territory of Azerbaijan, Russia created basis for Armenians to implement their territorial claims against Azerbaijanis in the future.

With the resettlement of Armenians in Azerbaijan and especially in Karabakh, a tragic and controversial period began in the history of Azerbaijan. This was the basis for the Armenian nationalists to realize the idea of creating "Great Armenia". The "Dashnaksutyun" party, whose goal is to establish an Armenian state by the use of arms and force, resorted to various measures to implement the idea of "Great Armenia" even at the beginning of the 20th century. Such measures were preceded by a plan to carry out ethnic cleansing of Azerbaijanis. The first stage of the ethnic cleansing plan was carried out during the First Russian Revolution (1905-1906). Karabakh, as well as Shusha, were chosen as one of the main targets during mass massacres of Azerbaijanis.

In such a complex historical period, the Azerbaijan People's Republic, which occupies an important place in the history of our national statehood, was established and acted under very difficult conditions. The newly established state, as in other areas, faced serious challenges in the field of protecting the territorial integrity of the country. During the 23 months of his existence against the constant threat from the side of Armenia, he duly resisted, saying that "Armenia's hope for Karabakh is a dream that cannot fit not only the basis of self-determination, but even the most primitive logic".

Armenians living in the mountainous part of Karabakh tried to declare its "independence" on July 22, 1918. Historically, Karabakh, inhabited by the Azerbaijani people, was a matter of life and death for the Republic. Concession of Karabakh to Armenians or any decision in favor of Armenians has never been a subject of discussion.

The expansion of the occupation actions of the nationalist Armenian general Andronik Ozanyan in the ancient Azerbaijani lands of Zangezur and Karabakh aggravated the relations between the Republics of Azerbaijan and Armenia. At that time, the government of Azerbaijan repeatedly appealed to the government of Armenia to stop these acts of aggression. The Armenian government rejected Andronikos and replied: "He has nothing to do with us, he is an independent person."

When talking about the bloody events that happened in Karabakh in 1918, special mention should be made of the events that happened in Shusha. Because, after Andronic's agents incited the Armenian population in Karabakh to revolt, Shusha was declared the capital of the "Karabakh Republic" by the Dashnaks. Andranik personally tried many times to capture this impregnable city and each time he suffered heavy losses and was forced to retreat to his stronghold Gorus.

But how did the people of Shusha achieve this? The bloody events of 1918 created a complicated situation in Shusha as well as in all of Karabakh. At that time, the majority of Shusha's population of 40,000 consisted of Azerbaijanis. The city was surrounded by 12 villages inhabited by Armenians from all sides. Malibeyli was the only village where Azerbaijanis lived among them. Armenians first blocked all the roads leading to the city in order to achieve the agreement of the Azerbaijanis with the plan to create the "Karabakh Republic". As a result, food did not enter the city for 4 months, there was a threat of starvation, and those who wanted to leave the city were killed. The tense international and domestic situation of the government of the Azerbaijan People's Republic did not allow immediate intervention in the current situation. In such a difficult time, the population had no choice but to take measures to defend themselves. For these purposes, voluntary armed groups were formed, military training was started for young

people, a hospital and a nurse course (for men) were opened considering the presence of wounded people in case of clashes, defense fortifications were built, and the city was fully prepared against an attack that could happen at any moment.

At a time when there was a shortage of food and water, waiting for the arrival of the troops of Andronik and Shahnazaryan and the flooding of the city with blood, the news of the liberation of Baku by Turkish and Azerbaijani troops on the evening of the Feast of Sacrifice created great excitement among the defenders of Shusha. Soon, this sacrifice of the people of Shusha - not allowing the city to fall under the enemy's foothold, protecting it with dignity - was duly appreciated. After the liberation of Baku, Nuri Pasha acted to stop the Armenians, who started to prepare for an all-out massacre in the Karabakh region. The 1st Azerbaijan Division was established for the operation. Baku Garrison Commander Colonel Jamil Jahid (Toydemir) Bey was appointed as its commander. The main strength of this Division was the 106th Infantry Regiment and the 9th Caucasian Regiment, which were under the command of the 5th Caucasian Infantry Division. These two regiments were dispatched against the Armenians, who had besieged the town of Shusha. On September 25, 1918, Turkish and Azerbaijani troops approached the city under the leadership of Commander of Karabakh Region, Major İsmail Hakkı Bey and Jamil Jahid Bey, and entered the city after saving Shusha from the siege of Armenians. Not daring to fight with the Turkish army, Andranik's gang, which besieged Shusha, fled to the south. The "leaders of the Republic of Karabakh" had no choice but to obey and recognize the state of Azerbaijan.

The surrender of the Ottoman Empire in the WWI led to the withdrawal of Turkish troops from the South Caucasus in October-November 1918 and the transfer of control over the nation-state structure of the region to the Entente countries.

In such a historical period, the separatist tendencies incited by emissaries from Armenia, bloody crimes against the Azerbaijani population, the weakness of the local government due to the lack of serious military power behind it, as well as the failure of the central government to fully regulate the relationship with the region necessitated the creation of the Karabakh Governorate. During this period, neither the attack of the Armenians on Shusha, nor the mischief they caused in the city did not stop. Unfortunately, the Armenians did not allow peace to be established in the territory of the Karabakh Governorate. Despite all the diplomatic and political efforts of the Azerbaijani government on the eve of the Sovietization of Azerbaijan, the conflict between Armenia and Azerbaijan around Karabakh was not resolved peacefully. After Sovietization, Armenia and its patrons were given a favorable opportunity for future political games by giving autonomy to the mountainous part of Karabakh.

These historical events were widely covered in the press pages of that time. After the declaration of national independence in Azerbaijan, the new task before the national press was to fight ideologically against internal and external threats. Of course, since the periodical press is the spoken language of the state and a means of regulating the social and political situation, the society has had a great need for its presence in all times. On September 15, 1918, the first issue of the "Azerbaijan" newspaper, the official state organ, was published in Ganja. In all periods, the violent acts committed by Armenians and the atrocities of the Dashnaks have been the main topic of the newspaper. In order to properly analyze and evaluate the nature of the crimes committed by Armenians in Karabakh, especially in Shusha, during the period of the Azerbaijan People's Republic, it is enough to refer to the materials provided in this newspaper.